| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 30.06.1998 |
| QEYDİYYAT NÖMRƏSİ | 514-IQ |
| ADI | Tullantılar haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-10-1998, Nəşr nömrəsi: 10, Maddə nömrəsi: 606) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 120.000.000<br>170.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

## *Tullantılar* haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, *tullantıların* insan sağlamlığına və ətraf mühitə zərərli təsirinin qarşısının alınması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, habelə belə tullantıların təkrar xammal mənbələri kimi təsərrüfat dövriyyəsinə cəlb olunması məqsədilə tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının dövlət siyasətini və hüquqi münasibətləri müəyyən edir.[2]

I fəsil

### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. Əsas anlayışlar[3]

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edir:

**istehsalat tullantıları** - istehsal, yaxud işlərin (xidmətlərin) yerinə yetirilməsi prosesində əmələ gələn və ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən xammal, material, maddə, yarımfabrikat, əşya və digər məhsulların qalıqları, habelə istehsal obyekti olmayan və öz istifadə olunma xüsusiyyətlərinə görə texnoloji prosesə daxil olmayan, yenidən əmələ gələn eyni mənşəli əşya və maddələr;

**məişət tullantıları** (bərk məişət tullantıları) — əhalinin həyat fəaliyyəti nəticəsində yaşayış yerlərində əmələ gələn əşyalar, maddələr və materiallar;

**təhlükəli tullantılar** - tərkibində təhlükəli xüsusiyyətlərə malik partlayıcı, yanma qabiliyyətli, oksidləşdirici, toksiki, infeksion, korroziya təsirinə malik və ekotoksiki maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar;

**təhlükəsiz tullantılar** - ətraf mühitə bilavasitə təhlükəli təsir göstərməyən tullantılar;

**təkrar xammal** - texniki və ya texnoloji imkanlar, həmçinin iqtisadi səmərəlilik nəzərə alınmaqla təsərrüfat fəaliyyətində təkrar istifadə oluna bilən tullantılar;

**yararsız tullantılar** — istifadə olunma xüsusiyyətləri məhdud olan, təkrar istifadəsi iqtisadi baxımdan səmərəli olmayan tullantılar;

**tullantıların emalı** — onların toplanması, saxlanılması, çeşidlənməsi, daşınması və zərərsizləşdirilməsi prosesindən ibarət məqsədyönlü fəaliyyət;

**tullantıların yerləşdirilməsi** — tullantıların saxlanılması və ya basdırılması üzrə həyata keçirilən fəaliyyət;

**tullantıların zərərsizləşdirilməsi** — ətraf mühitə və insanın sağlamlığına təsirini azaltmaq məqsədilə tullantıların xüsusi qurğularda emalı (o cümlədən yandırılması) və ya basdırılması.

**tullantılar** - qanunvericiliyin müddəalarına müvafiq olaraq kənarlaşdırılan, kənarlaşdırma üçün nəzərdə tutulan, kənarlaşdırılmalı olan maddə və əşyalar;

**tullantıların idarə olunması** - tullantıların əmələ gəldiyi fəaliyyət prosesi, habelə tullantıların yığılması (toplanması), çeşidlənməsi, daşınması, yerləşdirilməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə fəaliyyət;

**tullantıların yığılması (toplanması)** - tullantıların sonradan istifadə edilməsi, utilizasiyası və ya basdırılması (məhv edilməsi) məqsədilə icazə verilmiş yerlərdə müvəqqəti yerləşdirilməsi;

**tullantıların çeşidlənməsi** - tullantıların müəyyən əlamətlərinə (növünə, tərkibinə, xüsusiyyətinə və s.) görə toplanması;

**tullantıların daşınması** - tullantıların əmələ gəldiyi, yerləşdirildiyi, istifadə və utilizasiya edildiyi, zərərsizləşdirildiyi, basdırıldığı və ya məhv edildiyi yerlər və obyektlər arasında daşınması;

**tullantıların utilizasiyası** - tullantılardan lazımi materialların və enerjinin ayrılaraq təkrar istifadə üçün yararlı hala salınması;

**tullantıların basdırılması** - sonradan istifadəyə yararlı olmayan tullantılardan ətraf mühitə zərərli təsirin qarşısını almaq məqsədilə onların xüsusi ayrılmış yerlərdə müvafiq qaydada təcrid edilməsi;

**tullantıların istifadəsi** - tullantılardan malların (məhsulların) istehsalında və ya enerji əldə edilməsində istifadə olunması;

**tullantıların yerləşdirilmə obyekti** - tullantıların yerləşdirilməsi üçün nəzərdə tutulmuş xüsusi təchiz edilmiş qurğu (poliqon, şlam-anbar və başqaları);

**tullantıların sərhədlərarası daşınması** - ən azı iki dövlətin mənafeyinə toxunmaq şərtilə tullantıların bir dövlətin ərazisindən digər dövlətin ərazisinə və ya ərazidən keçməklə, yaxud hər hansı dövlətin yurisdiksiyası altında olmayan əraziyə və ya ərazidən keçməklə daşınması;

**tibbi tullantılar** - səhiyyə və baytarlıq obyektlərində və tibbi manipulyasiya zamanı əmələ gələn tullantılar;

**təhlükəli tullantıların pasportları** - təhlükəli tullantıların müvafiq tullantı növünə və təhlükəlilik dərəcəsinə aidiyyətini təsdiq edən, onların tərkibi barədə məlumat verən sənəd;

**tullantıların növü** - tullantıların təsnifatı sisteminə uyğun olaraq ümumi əlamətlərə malik olan tullantılar;

**tullantıların istehsalçısı** - fəaliyyəti nəticəsində təhlükəli və ya digər tullantıların əmələ gəlməsinə səbəb olan istənilən şəxs, yaxud bu şəxs məlum olmadıqda, tullantıların sahibi olan və/və ya onlara nəzarəti həyata keçirən şəxs;

**tullantıların sahibi (mülkiyyətçisi)** - tullantıların istehsalçısı, yaxud onların sahibi olan fiziki və ya hüquqi şəxs;

**texnoloji proses** - istehsalat vahidinin işə salınmasının təsdiq edilmiş müddəti ilə texnoloji reqlamentə uyğun fəaliyyəti;

**istehsalat tullantılarının əmələ gəldiyi yerlər** - onların əmələ gəldiyi texnoloji proses, yaxud istehsal sahələri (müəssisələr);

**tullantıların identifikasiyası** - pasport məlumatları və ya yoxlama sınaqları əsasında konkret təhlükəli tullantıların hansı tullantı növünə və xüsusiyyətinə aidiyyətinin müəyyən edilməsi proseduru;

**az tullantılı texnologiya** - ənənəvi üsullarla müqayisədə məhsulun alınması nəticəsində tullantıların nisbətən az həcmdə əmələ gəlməsinə imkan verən istehsalat prosesi. [4]

M a d d ə 2 . Tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi[5]

Tullantıların idarə olunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, Azərbaycan Respublikasının digər müvafiq qanunvericilik aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Zərərli qazlar, çirkab suları və radioaktiv tullantıların idarə olunması Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.[6]

M a d d ə 3 . Qanunun tətbiq sahəsi

*3.1.* Bu Qanun Azərbaycan Respublikasında fəaliyyəti nəticəsində tullantılar əmələ gələn və tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən bütün hüquqi və fiziki şəxslərə şamil olunur. [7]

*3.2. Ələt azad iqtisadi zonasında tullantıların idarə olunması sahəsində yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.*[8]

M a d d ə 4 . Tullantıların idarə olunması sahəsində dövlət siyasətinin prinsipləri[9]

Tullantıların idarə olunması sahəsində dövlət siyasətinin prinsipləri aşağıdakılardır:

əhalinin sağlamlığının və ətraf mühitin ekoloji tarazlığının qorunması;

ekoloji tarazlığın və iqtisadi maraqların təmin olunmasının elmi cəhətdən əsaslandırılması;

tullantıların idarə olunması sahəsində fəaliyyət göstərən müəssisələrin yaradılması, bu məqsədlə dövlət və özəl müəssisələrin, habelə xarici investorların vəsaitlərinin cəlb edilməsi;

(Çıxarılıb)[10]

təhlükəli tullantıların ekoloji baxımdan əsaslandırılmış idarəetmə sistemini yaratmaqla, onların sərhədlərarası daşınmasının minimuma endirilməsi;

təhlükəli və başqa tullantıların ekoloji cəhətdən özünü doğrultmuş üsullarla onların əmələ gəldiyi mənbənin mümkün qədər yaxınlığında istifadəsi və zərərsizləşdirilməsi;

təhlükəli tullantıların yarandığı yerlərdə onların azaldılması və minimuma endirilməsi məqsədilə az tullantılı texnologiyaların yaradılması və tətbiqi;[11]

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təhlükəli tullantıların təsnifatı və pasportlaşdırılması əsasında onların dövlət uçotunun aparılması.[12]

təbiəti mühafizə tələblərinə, ekoloji tarazlıq normalarına, gigiyena normativlərinə və sanitariya qaydalarına əməl olunmasına nəzarət;

tullantıların klassifikasiyası və pasportlaşdırılması əsasında dövlət uçotunun aparılması;

ictimai təşkilatların, maraqlı şəxslərin informasiya almasına təminat verilməsi;

əhalinin mənafeyi ilə bağlı qərarlar qəbul edilərkən ictimai rəyin nəzərə alınması;

tullantıların idarə olunması sahəsində çalışan işçilərin sosial müdafiəsi;

tullantılarla əlaqədar beynəlxalq əməkdaşlığın həyata keçirilməsi zamanı ölkənin milli mənafelərinin nəzərə alınması.

M a d d ə 5. Tullantıların idarə olunması üzrə münasibətlərinin tənzimlənməsi sahəsində dövlət hakimiyyət orqanlarının vəzifələri[13]

Tullantıların idarə olunması üzrə münasibətlərinin tənzimlənməsində *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)* vəzifələri aşağıdakılardır: [14]

tullantıların idarə olunması sahəsində dövlət siyasətinin həyata keçirilməsi;

qanunvericilik aktlarının və məqsədli proqramların hazırlanması, təsdiqi və onların yerinə yetirilməsinə dövlət nəzarəti;

tullantıların toplanması və emal üçün qanunvericilikdə müəyyən edilən qaydada iqtisadi həvəsləndirmənin təmin olunması;

müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və Səhiyyə Nazirliyi] ilə razılaşdırılmaqla tullantıların yerləşdirilməsi, basdırılması və emalı üçün torpaq sahələrinin ayrılması;

tullantıların aşkar edilməsi və onların təkrar emalı məqsədilə müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi;

tullantıların idarə olunmasında ətraf mühitə dəyən zərərin zərər yetirən tərəfindən ödənilməsinin təmin edilməsi;

*təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların,*

*poliqonların tikinti layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmış ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) sənədlərinin* dövlət ekoloji ekspertizasının aparılması;[15]

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq tullantıların sərhədlərarası daşınması qaydalarının müəyyənləşdirilməsi; [16]

*"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada* tullantılarla bağlı fəaliyyətdə *lisenziya və icazə* sisteminin tətbiq edilməsi; [17]

tullantıların idarə olunmasına dair dövlət standartlarının, normalarının və normativlərinin işlənib hazırlanması və tətbiq edilməsi;

tullantıların əmələ gəlməsi anından tam kənarlaşdırılmasına qədər onların dövlət uçotunun və hesabatlarının aparılması[18]

dövlət kadastrının aparılması;

əhalinin məlumat almasının təmin olunması;

faciə və bədbəxt hadisələrin aradan qaldırılması;

tullantıların saxlanılması, istifadəsi və zərərsizləşdirilməsi ilə əlaqədar obyektlərin layihələşdirilməsi və tikintisi;

tullantılardan tam istifadə və onların əmələ gəlməsinin azaldılmasında iqtisadi, sosial və hüquqi şərtlərin təmin edilməsi;

tullantıların idarə olunmasının yerli özünüidarə orqanları tərəfindən qanunvericiliyə uyğun təmin edilməsi;

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada tullantılarla bağlı fəaliyyət nəticəsində çirklənmiş sahələrin bərpa edilməsi;

tullantıların emalı üzrə qurğuların *"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum tərəfindən sertifikatlaşdırılmasının təşkili* və onların yerləşdirildiyi yerlərin qeydiyyata alınması, həmçinin təhlükəli tullantıların idarə edilməsi üzrə tələblərin həyata keçirilməsi; [19]

tullantıların idarə olunması ilə bağlı qaydaların (daşınma, saxlanma və s.) işlənilməsi və bu qaydaların icrasının təmin edilməsi mexanizminin hazırlanması;

hər bir təhlükəli tullantı daşıyıcısının uçotunun aparılması və hər bir təhlükəli tullantı istehsalçısının hər il əmələ gələn, emal olunan, utilizasiya edilən və saxlanılan tullantıların növünü, miqdarını, eləcə də emal və basdırılma üsullarını göstərməklə uçotunun aparılması.[20]

qanunvericilikdə nəzərdə tutulan digər vəzifələrin həyata keçirilməsi.

M a d d ə 6 . Tullantılarla əlaqədar mülkiyyət münasibətləri

Xammal, material, yarımfabrikat, digər əşya və ya məmulatların, habelə malların (məhsulların) istifadəsi nəticəsində əmələ gəlmiş tullantılar üzərində mülkiyyət hüququ onları əmələ gətirən mənbələrin mülkiyyətçisinə məxsusdur. Tullantılar üzərində mülkiyyət hüququ tullantıların özgəninkiləşdirilməsi haqqında alğı-satqı, mübadilə, bağışlama müqaviləsi və ya digər sövdələşmə əsasında başqa şəxsə verilə bilər.

Mülkiyyətçi tullantılardan təkrar xammal kimi istifadə edilməsini və onların təkrar emal üçün digər müəssisələrə göndərilməsini təmin etməli, istehsal prosesində və xidmət sahələrində əmələ gələn, təkrar xammal kimi istifadə olunan, təkrar emal üçün digər müəssisələrə göndərilən, ləğv edilməsi məqsədilə müvəqqəti saxlanılan və ləğv edilməyə göndərilən tullantıların uçotunu aparır və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına məlumat təqdim edir.

Təhlükəli tullantıların ləğv edilməsi *müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi dövlət ekoloji ekspertizasının müsbət rəyi* və nəzarəti altında həyata keçirilir. [21]

Təhlükəli tullantıların mülkiyyətçisi təhlükəli tullantıları başqa şəxsin mülkiyyətinə keçirə, əgər həmin şəxsin təhlükəli tullantıların idarə edilməsi sahəsində fəaliyyəti həyata keçirməyə hüququ varsa, mülkiyyətçi kimi qalaraq təhlükəli tullantılara sahiblik, istifadə və ya sərəncam hüququnu ona verə bilər.

Tullantıların üzərində mülkiyyət hüququndan imtina etmək məqsədilə onların mülkiyyətçi tərəfindən atıldığı, yaxud hər hansı başqa yolla saxlanıldığı təqdirdə mülkiyyətində, sərəncamında və ya istifadəsində atılmış tullantıların yerləşdiyi torpaq sahəsi, sututarı və ya başqa bir obyektin olduğu şəxs onların istifadəsinə başlamaqla və ya mülki qanunvericiliyə uyğun olaraq onların şəxsi mülkiyyətə çevrilməsini təsdiq edən digər hərəkətləri etməklə onları öz mülkiyyətinə çevirə bilər.[22]

I I f ə s i l

## TULLANTILARIN İDARƏ OLUNMASINA DAİR TƏLƏBLƏR[23]

Maddə 7 . **Bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi, tikintisi, yenidən qurulması, konservasiyası və ləğvinə aid tələblər**[24]

İstismarı zamanı tullantıların əmələ gəldiyi bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi, tikintisi, yenidən qurulması, konservasiyası və ləğvi zamanı fiziki və hüquqi şəxslər:

ətraf mühitin və insan sağlamlığının qorunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş ekoloji, sanitar və digər tələblərə əməl etməyə;

əmələ gələn tullantıların istifadəsi, zərərsizləşdirilməsi barədə müvafiq icra hakimiyyəti orqanları tərəfindən müsbət

rəy verilmiş texniki və texnoloji sənədlərə malik olmağa borcludurlar.

Yaşayış binalarının, habelə istismarı zamanı tullantıların əmələ gəldiyi müəssisə, bina, tikili, qurğu və digər obyektlərin layihələndirilməsi zamanı tullantıların idarə olunması sahəsində müəyyən edilmiş qaydalara, normativlərə və tələblərə uyğun olaraq belə tullantıların yığılması üçün yerlər (meydanlar) nəzərdə tutulmalıdır.

*Təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların, poliqonların layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı, həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.*

*Bu maddənin üçüncü hissəsində nəzərdə tutulan mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ-hüquqi aktların və texniki normativ-hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq dəyişikliklər edilir.*

*Bu maddənin üçüncü hissəsində nəzərdə tutulan mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.*

*Bu maddənin üçüncü hissəsində nəzərdə tutulan obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.*[25]

M a d d ə  8 . Tullantılarla bağlı istehsalat tələbləri

İstehsal prosesində hüquqi və fiziki şəxslər:

ətraf mühitin qorunması üçün, müəyyən olunan standartları, normaları və keyfiyyət üzrə tələbləri nəzərə almalı;

*"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq* təhlükəli tullantılarla bağlı fəaliyyəti *lisenziya və icazə* əsasında həyata keçirməli;[26]

az tullantılı texnologiyaları mənimsəməli;

istehsal prosesində əmələ gələn tullantıları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada inventarlaşdırmalı və bu barədə, eləcə də tullantıların dövriyyəsi haqqında müvafiq icra hakimiyyəti orqanına [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi] məlumat verməli;[27]

tullantılarla bağlı istehsalat nəzarətini həyata keçirməli;

qəza hallarının qarşısının alınması üçün tədbirlər görməli, ekoloji tarazlığın pozulmasına səbəb olan qəza təhlükəsi yarandıqda və ya baş verdikdə bu barədə müvafiq icra hakimiyyəti orqanına [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi] və əhaliyə məlumat verməlidirlər.

Zərərsizləşdirilməsi mümkün olmayan təhlükəli tullantılar əmələ gətirən fəaliyyətin həyata keçirilməsi qaydası qanunvericiliklə müəyyən olunur.

M a d d ə  9. Tullantıların emalı şərtləri[28]

Tullantıların emalı zamanı aşağıdakılar təmin edilir:

tullantıların həcminin azaldılmasına, onların emalına və zərərsizləşdirilməsinə yönəldilən texnoloji proseslərin ətraf mühit üçün təhlükəsizliyi;

texnologiyada nəzərdə tutulmayıbsa, emal zamanı təhlükəli və təhlükəsiz tullantıların qarışmasına yol verilməməsi;

tullantıların emalı zamanı real və potensial təhlükənin azaldılması;

tullantıların əmələ gəldiyi yerlərdə toplanması və onların texniki cəhətdən təchiz olunan xüsusi tutarlarda və ya bu məqsədlə ayrılan sahələrdə növlər üzrə saxlanılması;

ətraf mühitin mühafizəsi məqsədilə emal ediləsi tullantıların yerləşdirildiyi xüsusi tutarların və ya sahələrin yararlı halda saxlanılması;

yerləşdirildiyi, yaxud saxlanıldığı yerlərdə tullantıların ətraf mühitdən təcrid olunması;

tullantıların əmələ gəldiyi və ya onların emal edildiyi müəssisələrdə tullantıların texnoloji prosesdə təkrar xammal kimi istifadə olunmasının təşkil edilməsi;

tullantıların ətraf mühitə təsirinin azaldılması üçün onların emalının və zəərsizləşdirilməsinin bioloji, fiziki-kimyəvi, mexaniki-texniki, termik və digər üsullarla həyata keçirilməsi;

M a d d ə  1 0 . Tullantıların emalı yerlərinə tələblər

Tullantıların emalı yerlərinin müəyyənləşdirilməsi, layihələşdirilməsi, tikintisi, istifadəsi və ləğv edilməsi müvafiq norma və qaydalara uyğun aparılır.

Tullantıların emalı yerləri və texnologiyaları seçilərkən insan səhhətinə və ətraf mühitə ziyanlı təsir barədə ekoloji ekspertizanın tələbləri əsasında müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və Səhiyyə Nazirliyi] müəyyən etdiyi şərtlər nəzərə alınmalıdır.

Tullantıların emalı yerlərinin ətraf mühitə təsirini müəyyən etmək məqsədilə ətraf mühitin monitorinqi aparılmalıdır.

Tullantıların emalı yerlərində mərz nişanları və nəzarətli girişlər olmalı, texnoloji məntəqələrin ətraf mühit üçün tamamilə təhlükəsizliyi təmin edilməlidir. Bu məqsədlə nəzərdə tutulmayan yerlərdə tullantıların yerləşdirilməsi və emalı

qadağandır.

Tullantıları emal edən müəssisələrin fəaliyyəti tullantıların həcminin azaldılmasına və zərərsizləşdirilməsinə yönəldilməlidir. Bu müəssisələr öz fəaliyyətini nizamnamələrində nəzərdə tutulan qaydada və tullantılara mülkiyyət hüququnu təsdiq edən sənədlər əsasında həyata keçirirlər.

Tullantıları emal edən müəssisələrdə müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və Səhiyyə Nazirliyi] tərəfindən təsdiq edilən qəza hallarının ləğv edilməsinə dair tədbirlər planı olmalıdır.

M a d d ə 1 1 . Tullantıların yerləşdirilməsinə tələblər

Tullantıların yerləşdirilməsi müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları] icazəsi əsasında və normativ aktlarda müəyyən edilən tələblərə uyğun həyata keçirilir.

Tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi məqsədilə obyektlərin tikintisi üçün yer seçərkən müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Meliorasiya və Su Təsərrüfatı Komitəsi və yerli icra hakimiyyəti orqanları] razılığı ilə xüsusi (geoloji, hidroloji və s.) araşdırmalar aparılmalı və lazım gəldikdə ictimai rəy nəzərə alınmalıdır.

Şəhər və digər yaşayış məntəqələri, meşə-park, kurort, müalicə-sağlamlıq , turizm və rekreasiya zonalarının ərazisində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, çatlı süxurların və sulu təbəqələrin səthə çıxdığı yerlərdə, habelə içməli su təchizatı və təsərrüfat-məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrində, eyni zamanda faydalı qazıntı yataqlarının olduğu yerlərin çirklənməsinə və yeraltı işlərin aparılmasına təhlükə yarandığı hallarda faydalı qazıntı laylarının olduğu və yeraltı işlərin aparıldığı yerlərdə tullantıların basdırılması qadağandır.[29]

Tullantıların basdırılma yerləri müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Nazirlər Kabineti] müəyyən etdiyi qaydada tullantıların basdırılma yerlərinin dövlət reyestrinə daxil edilir.

Müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və yerli icra hakimiyyəti orqanları] ilə razılaşdırılan qaydada mülkiyyətçi tərəfindən basdırılma yerlərinin monitorinqi aparılmalıdır.

Tullantıların yerləşdirildiyi obyektlərin və ya sahələrin mülkiyyətçiləri bu obyektlərin və ya sahələrin istismar müddəti başa çatdıqdan sonra lazımi bərpa işləri aparmalıdırlar.

Tullantıların toplanmasını səmərəli təşkil etmək məqsədilə qiymətli komponentlər (yeyinti və toxuculuq məhsullarının tullantıları, müxtəlif metallar, kağız və s.) ayrı-ayrılıqda toplanmalıdır.

M a d d ə 1 2 . Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisində tullantıların idarə olunmasına dair tələblər [30]

Zərərsizləşdirmək məqsədilə məişət tullantıları tutumlara (urnalara) atılmalıdır. Bu tullantıların tutumlardan (urnalardan) kənar yerlərə atılması və ya basdırılması qadağandır.[31]

Şəhərlərdə və rayon ~~(şəhər rayonları istisna olmaqla)~~ inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumlar (urnalar) arası məsafə 100 metrdən çox olmamalıdır.[32]

Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisi müntəzəm olaraq məişət tullantılarından təmizlənməlidir;[33]

Şəhərlərin və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[34]

Atmosfer havasına zərərli təsir göstərən istehsal və məişət tullantılarının xüsusi qurğular olmadan yandırılmasına icazə verilmir.[35]

Maddə 12-1. **Bərk məişət tullantıları poliqonlarına dair tələblər**[36]

Bərk məişət tullantıları poliqonlarının yerləşdirilməsi və qurulması üçün sahə şəhər və digər yaşayış məntəqələrinin və şəhərətrafı zonaların planlaşdırılması və tikilməsi üzrə təsdiq olunmuş baş planlara və ya layihələrə uyğun olaraq ayrılmalıdır. Bərk məişət tullantıları poliqonlarının yerləşdirilməsi və qurulması üçün ərazi ekoloji normalara və Azərbaycan Respublikasının insan sağlamlığı və ətraf mühitin mühafizəsi sahəsində digər qanunvericilik aktlarına cavab verməlidir.

Bərk məişət tullantıları poliqonlarında müəssisələrin tullantılarının yerləşdirilməsi ekoloji, sanitar-epidemioloji qaydaların və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarının tələblərinə uyğun olaraq həyata keçirilir.

Onların öz-özünə alışıb yanmasının qarşısının alınması və xəbərdarlıq edilməsi üzrə tədbirlər nəzərdə tutulmalıdır.

Maddə 12-2. **Əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsinə tələblər**

Hüquqi və fiziki şəxslər tərəfindən əlvan və qara metal tullantılarının idarə olunması və onların özgəninkiləşdirilməsi Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

*Əlvan və qara metal tullantılarının qəbulu fəaliyyətini yalnız qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri "Texniki təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən dövlət reyestrində təhlükə potensiallı obyektlər olaraq qeydiyyatdan keçmiş sahibkarlıq subyektləri həyata keçirə bilər.*

*Əlvan və qara metal tullantılarının qəbulu, uçotu, radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilməsi qaydaları və onların əldə edilmə mənbəyinə dair tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir. Əldə edilmə mənbəyi məlum olmayan, qanunsuz yolla əldə edilməsi müəyyən edilən, fiziki şəxslərdən şəxsiyyəti təsdiq edən sənədlər tələb olunmadan, habelə radiasiya və partlayış təhlükəsizliyi baxımından müayinədən keçirilmədən əlvan və qara metal tullantılarının qəbul edilməsi, həmçinin qara və əlvan metalların əridilməsi və bunun nəticəsində ərintilərin alınması obyektləri təhlükə potensiallı obyektlər olaraq dövlət reyestrində qeydiyyatdan keçirilməyən sahibkarlıq subyektləri tərəfindən bu növ tullantıların qəbulu fəaliyyətinin həyata keçirilməsi məsuliyyətə səbəb olur.*[37]

Maddə 12-3. **Təhlükəli tullantıların idarə olunmasına dair tələblər**

Ətraf mühitə və insan sağlamlığına zərərli təsirin təhlükəlilik dərəcəsindən asılı olaraq təhlükəli tullantılar müvafiq icra hakimiyyəti orqanlarının tullantıların idarə olunması sahəsində müəyyən etdikləri meyarlara uyğun olaraq təhlükəlilik dərəcələrinə bölünürlər.

Fəaliyyəti prosesində təhlükəli tullantıların əmələ gəldiyi fiziki və hüquqi şəxslər bu tullantıların konkret hansı təhlükəlilik dərəcəsinə aid olduğunu tullantıların idarə olunması sahəsində müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş qaydada müəyyən etməlidirlər.

Təhlükəli tullantılar üçün pasport tərtib edilməlidir. Təhlükəli tullantıların pasportu təhlükəli tullantıların tərkibi və xüsusiyyətləri barədə məlumatlar, onların təhlükəlilik dərəcələrinin qiymətləndirilməsi əsasında tərtib olunur. Pasportlaşdırma qaydasını Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Fiziki və hüquqi şəxslərin təhlükəli tullantıların əmələ gəlməsinə şərait yaradan fəaliyyəti ətraf mühit və insan sağlamlığı baxımından tullantıların təhlükəsiz idarə olunmasını təmin etmək üçün texniki və ya digər imkanlar olmadıqda, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhdudlaşdırıla və ya qadağan edilə bilər.

*Toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilən lisenziya əsasında həyata keçirilir.*[38]

Maddə 12-4. **Tibbi tullantıların idarə olunmasına dair tələblər**

Tibbi tullantıların idarə olunmasına dair tələblər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Müalicə-profilaktik və baytarlıq müəssisələrinin fəaliyyət profilindən asılı olmayaraq tibbi tullantılar toksiki və yoluxdurucu təhlükəlilik növünə görə qruplaşdırılır. Tibbi tullantıların hansı təhlükəlilik növünə aid edilməsi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

Maddə 12-5. **Neft, qaz və elektroenergetika sənayesində tullantıların idarə olunması**

Neft, qaz və elektroenergetika sənayesində tullantıların idarə olunması müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilən normativ hüquqi aktla tənzimlənir.

Maddə 12-6. **Təhlükəli *tullantıların, o cümlədən* təhlükəli tibbi tullantıların idarə olunması sahəsində işləmələrinə icazə verilmiş şəxslərin peşə hazırlığına dair tələblər**[39]

Təhlükəli *tullantıların, o cümlədən* təhlükəli tibbi tullantıların idarə olunması sahəsində işləmələrinə icazə verilmiş şəxslər (işçilər) təhlükəli tullantılarla işləmək hüququ barədə şəhadətnamələrlə (sertifikatlarla) təsdiqlənən peşə hazırlığına malik olmalıdırlar.

İşçilərin təhlükəli tullantılarla, habelə təhlükəli və son dərəcə təhlükəli tibbi tullantılarla işə buraxılmasına görə məsuliyyəti təşkilatın müvafiq vəzifəli şəxsi daşıyır.

M a d d ə 1 3 . Tullantıların daşınmasına tələblər

Tullantıların müvafiq növ nəqliyyat vasitəsində daşınması qaydası, yükləmə və boşaltma işlərinin yerinə yetirilməsinə və ekoloji təhlükəsizliyin təmin olunmasına tələblər (norma və qaydalar) müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

Nəqliyyat vasitəsinə yükləndiyi andan onu qəbul edən hüquqi və fiziki şəxsə çatdırılana qədər tullantının daşınmasını həyata keçirənlər ətraf mühitin və insanların sağlamlığının təhlükəsizliyinə görə məsuliyyət daşıyırlar.

Təhlükəli *tullantıların, o cümlədən* təhlükəli tibbi tullantıların nəqliyyat vasitələrində daşınması qaydası bu sahədə mövcud olan dövlət standartları və normativləri əsasında müəyyən olunur.

Təhlükəli tullantıların daşınması aşağıdakı şərtlərlə həyata keçirilməlidir:

təhlükəli tullantıların daşınmasına dair bildiriş;

təhlükəli tullantıların pasportunun olması;

xüsusi avadanlıqlar və işarələrlə təchiz olunmuş nəqliyyat vasitəsinin olması;

təhlükəli tullantıların nəqliyyat vasitəsində daşınması ilə bağlı təhlükəsizlik tələblərinə əməl olunması;

təhlükəli tullantıların miqdarını, onların daşınma məqsədini və təyinat yerini göstərən sənədlərin olması. [40]

Maddə 14. **Tullantıların sərhədlərarası və tranzit daşınması**

Təhlükəsiz emalı mümkün olmayan, habelə tranzit daşınmaq, basdırılmaq və zərərsizləşdirilmək məqsədilə bu tullantıların Azərbaycan Respublikasına gətirilməsi qadağandır.

*Tullantıların emalı, basdırılması və ya saxlanılması üçün Azərbaycan Respublikasına idxalı, ixracı və tranzit daşımaları "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada həyata keçirilir.*[41]

Təhlükəli tullantıların sərhədlərarası daşınması qaydası Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.[42]

*II-I fəsil*

***NƏQLİYYAT VASİTƏLƏRİNİN UTİLİZASİYASI***[43]

***Maddə 14-1. Nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı ümumi müddəalar***

*Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin (raritet minik avtomobilləri və gömrük ərazisinə müvəqqəti gətirilən minik avtomobilləri istisna olmaqla) gömrük rəsmiləşdirilməsi, həmçinin nəqliyyat vasitələrinin dövlət texniki baxışından keçirilməsi zamanı nəqliyyat vasitələrinin utilizasiyası fonduna utilizasiya haqqı ödənilir.*

*Minik avtomobillərinin gömrük ərazisinə gətirilməsinə görə utilizasiya haqqının bəyannaməçilər tərəfindən ödənilməsi gömrük orqanları tərəfindən təmin edilir.*

*Dövlət texniki baxışı üzrə utilizasiya haqqı nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinin VI hissəsində nəzərdə tutulan müddətlərdə texniki baxışa faktiki təqdim olunan vaxt ödənilir.*

*Utilizasiya haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitəsinin istehsal-buraxılış ili üzrə müəyyən edilir.*

*Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini bu Qanunun 14-4-cü və 14-5-ci maddələrində nəzərdə tutulan reyestrdə qeydiyyata alınmış şəxslər (bundan sonra - utilizatorlar) və digər şəxslər həyata keçirə bilər.*

*Utilizasiyaya verilmiş nəqliyyat vasitələri ilə bağlı bu Qanunun 14-7-ci və 14-8-ci maddələrinin tələbləri nəzərə alınmaqla, utilizatorlar tərəfindən özündə güzəştin məbləğini və birdəfəlik ödənişin həcmini əks etdirən təsdiqedici sənəd verilir.*

*Utilizatorlar tərəfindən nəqliyyat vasitələrinin utilizasiyaya qəbulu növbəlilik qaydasında və ödənişsiz həyata keçirilir.*

*Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri təsdiqedici sənəd təhvil verilməklə satın alındıqda nəqliyyat vasitələrinin satıcıları tərəfindən güzəşt tətbiq edilir. Güzəştin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

***Qeyd:***

*Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələri dedikdə, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrində nəzərdə tutulan nəqliyyat vasitələri başa düşülür. Digər nəqliyyat vasitələrinə bu fəslin müddəaları şamil edilmir və onlar mülki qanunvericiliyə uyğun olaraq bağlanmış müqavilə əsasında utilizasiyaya qəbul edilir.*

*Bu fəslin məqsədləri üçün nəqliyyat vasitələrinin satıcıları dedikdə, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisi kimi uçota alınmaqla nəqliyyat vasitələrinin satışı üzrə sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki və ya hüquqi şəxslər başa düşülür.*

***Maddə 14-2. Nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator***

*Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator (bundan sonra - operator) müəyyən edilir. Operator aşağıdakı funksiyaların icrasını təşkil və təmin edir:*

*nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitlərinin idarə olunması;*

*utilizatorların reyestrinin (bundan sonra - reyestr) aparılması, saxlanılması və ona nəzarət;*

*bu Qanunun 14-9-cu və 14-10-cu maddələrində nəzərdə tutulan yazılı məlumatların alınması;*

*bu Qanunun 14-9-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq təsdiqedici sənədlərin uçotunun aparılması.*

*Operator nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyəti ilə məşğul ola bilməz.*

*Operator ona təqdim olunmuş məlumatları ümumiləşdirərək hər növbəti təqvim ili fevralın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verir.*

***Maddə 14-3. Nəqliyyat vasitələrinin utilizasiyası fondunun yaradılması və fəaliyyəti***

*Bu Qanunun 14-8-ci maddəsinə əsasən, güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fondu yaradılır.*

*Nəqliyyat vasitələrinin utilizasiyası fondu məqsədli büdcə fondudur və aşağıdakı müstəqil mədaxil mənbələri hesabına maliyyələşir:*

*utilizasiyası haqqı;*

*kreditlər və qrantlar;*

*hüquqi və fiziki şəxslərin könüllü ianələri;*

*beynəlxalq təşkilatların və digər donorların ayırmaları;*

*qanunla qadağan olunmayan digər mənbələr.*

*Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.*

***Maddə 14-4. Reyestrdə qeydiyyata alınmaq üçün tələblər***

*Reyestrdə qeydiyyata alınmaq üçün ərizəçidən (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs) aşağıdakılar tələb olunur:*

*vergi, məcburi dövlət sosial sığorta haqqı, icbari tibbi sığorta haqqı və işsizlikdən sığorta haqqı üzrə borcu olmamaq;*

*nəqliyyat vasitələrinin qəbulunu, saxlanılmasını və utilizasiyasını həyata keçirmək üçün mülkiyyətində, yaxud sahibliyində və ya istifadəsində müvafiq ərazilərə malik olmaq;*

*nəqliyyat vasitələrinin, o cümlədən utilizasiya nəticəsində əldə edilən materialların və hissələrin saxlanılması üçün onların zədələnməməsini təmin edən, üzəri dağılmayan və texniki mayeləri sızdırmayan material ilə örtülən (asfalt, beton, gil-beton, polimer beton) sahələrə malik olmaq;*

*təhlükəli tullantıların saxlanılması üçün normativ hüquqi aktlarla nəzərdə tutulan tələblərə cavab verən sahələrə malik olmaq;*

*nəqliyyat vasitələrinin, onların hissələrinin (partlayıcı qabiliyyətli, o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələrin) təhlükəsiz qaydada sökülməsi üçün maddi-texniki bazaya malik olmaq;*

*nəqliyyat vasitələrinin təkrar istifadəyə yararlı hissələrinin yoxlanılması üçün maddi-texniki bazaya malik olmaq.*

***Maddə 14-5. Reyestrin aparılması***

*Reyestrin aparılması, saxlanılması və ona nəzarət operator tərəfindən həyata keçirilir.*

*Reyestrə aşağıdakı məlumatlar daxil edilir:*

*utilizatorlar barədə məlumatlar;*

*utilizatorların qeydiyyatı və ləğvi barədə məlumatlar;*

*qeydiyyata alınma və dəyişikliklər üçün təqdim edilmiş sənədlər, qeydiyyatın ləğvi üçün əsaslar və müvafiq faktı təsdiq edən sənədlər.*

*Reyestrə utilizatorlar barədə aşağıdakı məlumatlar daxil edilir:*

*hüquqi şəxs olan utilizatorun tam adı, təşkilati-hüquqi forması, hüquqi və faktiki ünvanı, əlaqə məlumatları;*

*hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan utilizatorun soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları;*

*vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;*

*utilizatorun səlahiyyətli nümayəndəsinin (təmsilçisinin) soyadı, adı, atasının adı, ünvanı, əlaqə məlumatları.*

*Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs reyestrdə qeydiyyata alınmaq üçün operatora ərizə ilə müraciət edir.*

*Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:*

*hüquqi şəxslərin dövlət reyestrindən çıxarışın, hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyat şəhadətnaməsinin surəti;*

*hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin və vergi uçotuna alınması haqqında şəhadətnamənin surəti;*

*səlahiyyətli nümayəndənin (təmsilçinin) səlahiyyətini və şəxsiyyətini təsdiq edən sənədlərin surəti;*

*"Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və müsbət dövlət ekoloji ekspertiza rəyi;*

*texniki-iqtisadi əsaslandırma sənədi;*

*bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab verməsini təsdiq edən sənədlərin surətləri.*

*Ərizə və ona əlavə olunan sənədlər ərizəçi tərəfindən birbaşa və ya səlahiyyətli nümayəndə tərəfindən təqdim olunmalıdır. Ərizəyə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılır.*

*Reyestrdə qeydiyyata alınmaq üçün nəzərdə tutulan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.*

*Sənədlərdə və ya məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olduqda ərizənin qəbul edildiyi gündən etibarən 3 (üç) iş günü müddətində bu barədə ərizəçiyə yazılı məlumat verilir. Bütün çatışmazlıq və uyğunsuzluqlar ərizəçiyə eyni anda bildirilməlidir.*

*Ərizəçi həmin məlumatı aldığı gündən 10 (on) iş günü müddətində çatışmazlıq və ya uyğunsuzluqları aradan qaldırmalıdır. Bu zaman ərizəyə baxılması ilə bağlı müddətin axımı dayandırılır. Çatışmazlıq və ya uyğunsuzluqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.*

*Ərizəçi sənədlərdə və ya məlumatlarda aşkar olunmuş çatışmazlıq və ya uyğunsuzluqları vaxtında aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir. Çatışmazlıq və uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra ərizəçinin reyestrdə qeydiyyata alınmaq üçün yenidən müraciət etmək hüququ vardır.*

*Sənədlərdə və məlumatlarda çatışmazlıq və ya uyğunsuzluq olmadıqda ərizəçinin reyestrdə qeydiyyata alınması və ya ərizəçi reyestrdə qeydiyyata alınmaq üçün bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərə cavab vermədiyi hallarda onun reyestrdə qeydiyyata alınmasından imtina haqqında əsaslandırılmış qərar qəbul edilir və 3 (üç) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə və ya elektron qaydada ərizəçiyə göndərilir.*

*Ərizəçinin reyestrdə qeydiyyata alınması barədə qərar qəbul edildiyi gündən 3 (üç) iş günü müddətində ona dair məlumatlar reyestrə daxil edilərək bu barədə ərizəçiyə sifarişli poçt bildirişi ilə və ya elektron qaydada məlumat verilir.*

*Utilizatorlara vahid və təkrarolunmaz 11 (on bir) rəqəmdən ibarət qeydiyyat nömrəsi verilir və reyestrdə əks olunur.*

*Aşağıdakı hallarda utilizatorların qeydiyyatı ləğv edilir və onlar reyestrdən çıxarılır:*

*utilizatorun bu barədə ərizəsi olduqda;*

*hüquqi şəxs olan utilizator ləğv edildikdə;*

*fiziki şəxs olan utilizator öldükdə və ya qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə ölmüş və ya itkin düşmüş elan edildikdə;*

*bu Qanunun 14-4-cü və 14-6-cı maddələrində nəzərdə tutulan tələblərin və vəzifələrin yerinə yetirilməməsi ilə bağlı bir təqvim ili müddətində 3 (üç) dəfədən artıq qanunla müəyyən olunan məsuliyyətə cəlb edilərək barəsində qanuni qüvvəyə minmiş inzibati tənbeh vermə haqqında qərar olduqda.*

*Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu maddənin on dördüncü hissəsinin beşinci abzasında nəzərdə tutulan inzibati tənbeh vermə haqqında qərarlar qüvvəyə mindiyi gündən 5 (beş) iş günü müddətində onların surətini operatora göndərir.*

*Utilizatorun qeydiyyatı ləğv edildikdə onun qeydiyyat nömrəsi silinmir, başqasına verilmir və bu barədə reyestrdə müvafiq qeyd aparılır.*

*Reyestrdə qeydiyyata alınmış utilizatorlar bu maddənin ikinci və üçüncü hissələrində nəzərdə tutulan məlumatlarda dəyişiklik baş verdiyi gündən 5 (beş) iş günü müddətində həmin dəyişikliyin reyestrə daxil edilməsi məqsədilə operatora məlumat verməlidirlər.*

*Dəyişikliklərin qeydiyyatı bu maddənin dördüncü hissəsində, beşinci hissəsinin ikinci – dördüncü abzaslarında və altıncı – on ikinci hissələrində nəzərdə tutulan qaydada həyata keçirilir.*

*Reyestrdə dəyişiklik edilərkən qeydiyyat nömrəsi dəyişilmir.*

*Utilizatorların reyestrdə qeydiyyatı və reyestrə daxil edilmiş məlumatlarda dəyişiklik edilməsi ödənişsiz həyata keçirilir.*

*Reyestr kağız (reyestr kitabı) və elektron formada tərtib edilir. Kağız və elektron daşıyıcılardakı qeydlər arasında uyğunsuzluq olduqda, kağız daşıyıcılar üzərində olan qeydlərə üstünlük verilir.*

*Reyestr kitabı qaytanlanır, səlahiyyətli vəzifəli şəxs tərəfindən imzalanır və möhürlənir.*

***Maddə 14-6. Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin vəzifələri***

*Nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən şəxslərin bu fəaliyyətlə bağlı aşağıdakı vəzifələri vardır:*

*utilizasiya prosesində ətraf mühitə zərərli maddələrin atılmasının qarşısının alınması üçün zəruri tədbirlər görmək;*

*"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda tullantıların utilizasiyası sahəsində lisenziya və ya icazə tələb olunan müvafiq fəaliyyət növlərini və ya hərəkətləri müvafiq lisenziya və ya icazə alındıqdan sonra həyata keçirmək;*

*yanacaq çənini, partlayıcı xüsusiyyətə malik detalları (xüsusilə hava yastıqlarını), o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələri təhlükəsiz qaydada sökmək;*

*yanacaq, mühərrik və transmissiya yağı, hidravlik ötürücü sistemlərin mayeləri, soyuducu və əyləc mayeləri, kondisioner sistemindəki mayelər və digərləri daxil olmaqla mayeləri ayrı-ayrı hermetik qablara boşaltmaq;*

*təhlükəli tullantıları çeşidləyərək ayrı toplamaq və onlarla bağlı bu Qanunun tələblərinə uyğun tədbirləri həyata keçirmək;*

*toplanmış tullantıları onların təkrar emalını və ya zərərsizləşdirilməsini həyata keçirən ixtisaslaşmış şəxslərə satmaq və ya təhvil vermək;*

*birbaşa utilizasiya proseslərinə yalnız peşə hazırlığına malik olan işçi heyətini cəlb etmək;*

*birbaşa utilizasiya proseslərinə cəlb edilən işçi heyətinin əməyin mühafizəsi üzrə təlimatlandırılmasını və biliklərinin yoxlanılmasını təmin etmək.*

*Bu maddənin birinci hissəsində nəzərdə tutulan vəzifələrin və bu Qanunun 14-4-cü maddəsində nəzərdə tutulan tələblərin yerinə yetirilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.*

***Maddə 14-7. Nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi***

*Nəqliyyat vasitələri utilizasiyaya aşağıdakılar tərəfindən verilir:*

*nəqliyyat vasitələrinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs;*

*aşağıdakı nəqliyyat vasitələri üzrə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin II və III hissələrinə uyğun olaraq onların dövlət qeydiyyatını həyata keçirən aidiyyəti orqanlar (bundan sonra - dövlət qeydiyyatı orqanı):*

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada sahibsiz hesab edilən;*

*istismara yararsız vəziyyətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mühafizə olunan duracağında saxlanılan, əgər nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs yazılı şəkildə imtina edibsə.*

*Nəqliyyat vasitələri utilizasiyaya verilməzdən əvvəl "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin IX-I və IX-II hissələri ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır.*

*Nəqliyyat vasitələri utilizasiyaya verildikdə utilizatorlar tərəfindən aşağıdakı sənədlər tələb edilir:*

*nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizə;*

*nəqliyyat vasitəsini utilizasiyaya mülkiyyətçi adından digər şəxs verdikdə, nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu təsdiq edən etibarnamə;*

*nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması barədə aidiyyəti dövlət qeydiyyat orqanının yazılı məlumatı;*

*fiziki şəxsin şəxsiyyətini təsdiq edən, hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən sənədin surəti.*

*Ərizəyə baxılması və sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olduqda onun baxılmamış saxlanılması bu Qanunun 14-5-ci maddəsinin altıncı – onuncu hissələrində müəyyən edilmiş qaydada həyata keçirilir.*

*Göstərilən sənədlərdə hər hansı çatışmazlıq və ya uyğunsuzluq olmadıqda utilizasiyaya verilən nəqliyyat vasitəsinin təhvil alınması barədə akt (bundan sonra - akt) tərtib olunur və aktda aşağıdakılar göstərilir:*

*nəqliyyat vasitəsinin ümumi texniki vəziyyəti və komplektliyi barədə məlumat;*

*nəqliyyat vasitəsinin eyniləşdirmə məlumatları;*

*nəqliyyat vasitəsinin mövcud olmayan hissələri barədə məlumatlar;*

*güzəşt məbləği və birdəfəlik ödənişin həcmi barədə məlumat.*

*Akt ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir. Aktın hər bir nüsxəsinə sayı beşdən az olmamaq şərtilə utilizasiyaya verilən nəqliyyat vasitəsinin fotoşəkilləri (ön, arxa, hər iki yandan və içəridən) əlavə edilir.*

*Nəqliyyat vasitəsi akt əsasında təhvil alındıqdan sonra 2 (iki) iş günü müddətində utilizator tərəfindən bu Qanunun*

*14-8-ci maddəsinin tələbləri nəzərə alınmaqla utilizasiyaya verilmə barədə təsdiqedici sənəd verilir. Təsdiqedici sənəd ciddi hesabat blankıdır və 3 (üç) nüsxədə tərtib edilir.*

*Aktın və təsdiqedici sənədin bir nüsxəsi utilizatorda, bir nüsxəsi nəqliyyat vasitəsini utilizasiyaya verən şəxsdə saxlanılır, bir nüsxəsi isə utilizator tərəfindən 3 (üç) iş günü müddətində operatora göndərilir.*

*Nəqliyyat vasitəsinin utilizasiyası üçün ərizənin, nəqliyyat vasitəsinin təhvil alınması barədə aktın və utilizasiyaya verilmə barədə təsdiqedici sənədin formaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.*

*Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqi ilə bağlı müddəalar istisna olmaqla, bu maddənin tələbləri qoşqu və yarımqoşqulara, habelə nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyətini həyata keçirən digər şəxslərə də şamil olunur.*

***Maddə 14-8. Təsdiqedici sənədin, güzəştin və birdəfəlik ödənişin tətbiqinin xüsusiyyətləri***

*Utilizasiyaya verilən hər nəqliyyat vasitəsinə görə utilizatorlar tərəfindən yalnız bir təsdiqedici sənəd verilir və güzəştin tətbiqi satın alınacaq yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin kateqoriyası üzrə məhdudlaşdırılmır.*

*Təsdiqedici sənəd verildiyi gündən 3 (üç) il müddətində qüvvədə olmaqla, yalnız bir dəfə istifadə üçün nəzərdə tutulur. Təsdiqedici sənəd adsızdır və başqa şəxs tərəfindən də istifadə edilə bilər.*

*Utilizasiyaya verilən müxtəlif nəqliyyat vasitələrinə görə verilmiş, qüvvədə olan və istifadə edilməmiş təsdiqedici sənədlər əsasında əldə edilən güzəşt məbləğlərinin cəmlənməklə istifadəsinə yol verilir.*

*Nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilə bilməz.*

*Yeni istehsal olunmuş yerli nəqliyyat vasitələrinin satışı təsdiqedici sənədlər əsasında güzəşt tətbiq edilməklə həyata keçirildikdə nəqliyyat vasitələrinin satıcıları 3 (üç) iş günü müddətində alqı-satqını rəsmiləşdirən sənədlərin və təsdiqedici sənədlərin surətlərini, habelə onların tətbiq edildiyi nəqliyyat vasitələri barədə məlumatları (ban, şassi, mühərrik nömrəsi) operatora göndərirlər.*

*Operator nəqliyyat vasitələrinin satıcıları tərəfindən bu maddənin beşinci hissəsində qeyd olunan sənədlər təqdim edildiyi gündən 30 (otuz) iş günü müddətində müvafiq güzəşt məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan nəqliyyat vasitələrinin satıcılarının hesabına köçürülməsini təmin edir. Tətbiq edilən güzəşt məbləği satın alınan nəqliyyat vasitəsinin müqavilə üzrə satış dəyərindən çox olduqda güzəşt məbləğinin artıq olan hissəsi nəqliyyat vasitələrinin satıcılarına ödənilmir.*

*Təsdiqedici sənədə malik şəxs öz seçimi əsasında yeni istehsal olunmuş yerli nəqliyyat vasitəsinin satın alınması üçün güzəştin əvəzinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən daha az həcmdə birdəfəlik ödəniş ala bilər.*

*Aşağıdakı nəqliyyat vasitələri üzrə birdəfəlik ödəniş məbləğləri dövlət büdcəsinə köçürülür:*

*- dövlət adından yaradılan publik hüquqi şəxslərə, dövlət idarə, müəssisə və təşkilatlarına məxsus olan;*

*- bu Qanunun 14-7-ci maddəsinin birinci hissəsinin üçüncü abzasına uyğun olaraq aidiyyəti dövlət qeydiyyat orqanı tərəfindən utilizasiyaya verilən.*

*Operator müvafiq təsdiqedici sənəd ona təhvil verildiyi gündən 30 (otuz) iş günü müddətində birdəfəlik ödəniş məbləğinin nəqliyyat vasitələrinin utilizasiyası fondundan aidiyyəti üzrə təsdiqedici sənədi təqdim edən şəxsin hesabına və ya dövlət büdcəsinə köçürülməsini təmin edir və ödənişin həyata keçirilməsi barədə sənədi təsdiqedici sənədi təqdim edən şəxsə verir.*

***Maddə 14-9. Təsdiqedici sənədlər üzrə məlumatların verilməsi***

*Utilizatorlar verdikləri təsdiqedici sənədlərlə bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.*

*Nəqliyyat vasitələrinin satıcıları təsdiqedici sənədlərin uçotunu aparırlar və bununla bağlı hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.*

*Operator təsdiqedici sənədlərin uçotunun aparılmasını təmin edir.*

***Maddə 14-10. Utilizasiya nəticəsində əldə edilmiş yararlı material və əşyalar***

*Utilizatorlar tərəfindən utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə olunan yararlı materiallar və əşyalar mülki qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilə əsasında ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılır.*

*Utilizatorlar bağlanılmış müvafiq müqavilənin və təhvil-təslim sənədlərinin surətlərini əlavə etməklə bu barədə hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.*

## III fəsil
## TULLANTILARLA BAĞLI FƏALİYYƏTƏ NƏZARƏT

### Maddə 15. Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarəti

Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarəti müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi] tərəfindən həyata keçirilir.

Tullantılarla bağlı fəaliyyətə dövlət nəzarətinə:

hüquqi və fiziki şəxslər tərəfindən qanunvericiliyin tələblərinə əməl olunması;

təqsirkar hüquqi və fiziki şəxslərin qanunvericilikdə müəyyən olunan qaydada məsuliyyətə cəlb olunması;

qanunvericiliyin tələblərinin pozulması nəticəsində insan sağlamlığına və ətraf mühitə dəyən zərərin ödənilməsinə görə iddia qaldırılması;

mülkiyyətçilər tərəfindən tullantılarla bağlı uçot və hesabatın düzgünlüyü;

sanitariya, gigiyena, əksepidemik və təbiəti mühafizə tədbirlərinin yerinə yetirilməsinə, gigiyena və ekoloji normativlərə əməl olunması;

baş vermiş fəlakət və qəzaların nəticələrinin aradan qaldırılması tədbirlərinin həyata keçirilməsi;

mövcud istehsal proseslərinin tullantılarla əlaqədar təhlili, tullantıların həcminin və təhlükəlilik dərəcəsinin azaldılması imkanlarının araşdırılması;

əhalinin tullantılara dair informasiya almaq hüququna əməl olunması;

*təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların, poliqonların layihələrinin ətraf mühitə təsirin qiymətləndirilməsinə və strateji ekoloji qiymətləndirməyə dövlət nəzarətinin təşkil edilməsi, əhalinin sağlamlığı və ətraf mühit üçün potensial təhlükə yaradan fəaliyyətin dayandırılması və ona xitam verilməsi barədə qərar qəbul edilməsi;*[44]

tullantıların idxalı, ixracı və tranzit daşınmasına nəzarət daxildir.

M a d d ə 1 6 . Tullantılarla bağlı istehsalat nəzarəti

Tullantılarla bağlı təsərrüfat fəaliyyətini həyata keçirən müəssisə və təşkilatlar bu sahədə istehsalat nəzarətini təşkil etməlidirlər.

İstehsalat nəzarətinin məqsədi ekoloji, sanitariya və digər tələblərin yerinə yetirilməsini yoxlamaqdan ibarətdir.

İstehsalat nəzarətinin təşkili qaydaları müvafiq qanunvericiliyə əsasən müəssisə və təşkilatlar tərəfindən müəyyənləşdirilir.

M a d d ə 1 7 . Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət

Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarət qanunvericilikdə müəyyən olunan qaydada ictimai birliklər, əmək kollektivləri və vətəndaşlar (əhali) tərəfindən həyata keçirilir.

Tullantılarla bağlı fəaliyyətə ictimai nəzarətin məqsədi dövlət orqanları və bələdiyyələr, eləcə də hüquqi və fiziki şəxslər tərəfindən bu Qanunun tələblərinin yerinə yetirilməsini araşdırmaqdan ibarətdir.

## I V f ə s i l
## TULLANTILARLA BAĞLI İQTİSADİ TƏNZİMLƏNMƏ

M a d d ə 1 8 . Tullantılarla bağlı fəaliyyət sahəsində iqtisadi tənzimlənmə

Tullantılarla bağlı fəaliyyət sahəsində iqtisadi tənzimlənmə onun həcmi, təhlükəlilik dərəcəsi və yerləşdirilmə normativləri nəzərə alınmaqla tullantının toplanmasına, yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqq ödənilməsi prinsipinə əsaslanır.

Tullantıların yığılması (toplanması), yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsinə görə haqq tullantıların həcminin (kütləsinin), növünün və digər xüsusiyyətlərinin nəzərə alınması ilə müəyyən edilir və çirkləndirici tərəfindən ödənilir.[45]

Hüquqi və fiziki şəxslərin ödəmələrindən əldə olunan vəsait təbiəti mühafizə tədbirlərinin həyata keçirilməsinə sərf olunur.

Tullantılarla əlaqədar iqtisadi stimullaşdırma formaları və onun tətbiqi mexanizmi, habelə tullantıların toplanmasına, yerləşdirilməsinə, istifadəsinə və zərərsizləşdirilməsinə görə haqq ödənilməsi, onun həcmi və bölüşdürülməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

M a d d ə 1 9 . Tullantılarla bağlı normativlər

Tullantıların ətraf mühitə və insan sağlamlığına təsir həddini nizamlayan normativlər müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Nazirlər Kabineti] tərəfindən müəyyən edilir.

İdxal, ixrac və alqı-satqı obyekti olan tullantılar *"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq* sertifikatlaşdırılır.[46]

M a d d ə 2 0. Tullantılarla bağlı dövlət uçotu və hesabat

Hüquqi və fiziki şəxslər tullantıların əmələ gəlməsinin, istifadəsinin, yerləşdirilməsinin, başqasına verilməsinin və ya satılmasının müvafiq icra hakimiyyəti orqanının [Azərbaycan Respublikasının Nazirlər Kabineti] müəyyən etdiyi qaydada və müddətdə ilkin uçotunu aparır, müvafiq dövlət orqanına hesabat təqdim edirlər.

Hüquqi və fiziki şəxslər tullantıların uçotu ilə bağlı informasiyanın qanunvericilikdə müəyyən edilən müddət ərzində saxlanılmasını təmin edirlər.

Tullantılarla bağlı dövlət uçotu və hesabatı vahid sistem üzrə hazırlanır və aparılır.

M a d d ə 2 1 . Tullantıların dövlət kadastrı

Tullantıların dövlət kadastrına onların uçotuna dair sistemləşdirilən məlumatlar daxil edilir.

Tullantıların dövlət kadastrı tullantıların siniflərə (dərəcələrə) bölünmə sistemlərini, onların yerləşdirilməsi obyektlərinin siyahısını, bank məlumatlarını və tullantıların emal texnologiyalarını əks etdirir.

Tullantıların dövlət kadastrının aparılması qaydası və onun məzmunu müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

## V f ə s i l

## YEKUN MÜDDƏALARI

M a d d ə  2 2 . Beynəlxalq əməkdaşlıq

Tullantılarla bağlı fəaliyyət sahəsində beynəlxalq əməkdaşlıq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun həyata keçirilir.

M a d d ə  2 3 . Mübahisələrin həll edilməsi

Tullantılarla bağlı mübahisələr qanunvericilikdə müəyyən edilən qaydada müvafiq icra hakimiyyəti orqanları [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və yerli icra hakimiyyəti orqanları] və məhkəmələr tərəfindən həll edilir.

M a d d ə  2 4 . Tullantılar haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Tullantılar haqqında qanunvericiliyin tələblərini pozan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq intizam, inzibati, cinayət və mülki-hüquqi məsuliyyət daşıyırlar.

*Maddə 25.* ***Keçid müddəa***

*Bu Qanunun 14-1-ci maddəsinin birinci-dördüncü hissələri və 14-3-cü maddəsi 2024-cü il fevralın 1-dən, II-I fəslinin digər müddəaları 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.*[47]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 30 iyun 1998-ci il
514-IQ

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 12 fevral 2002-ci il tarixli 262-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 4, maddə 165**)
2. 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**)
3. 9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 938**)
4. 2 iyun 2008-ci il tarixli **615-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 460**)
5. 12 iyun 2012-ci il tarixli **379-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 7, maddə 648**)
6. 14 aprel 2017-ci il tarixli **594-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 iyun 2017-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1017**)
7. 15 dekabr 2017-ci il tarixli **929-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 144**)
8. 28 dekabr 2018-ci il tarixli **1426-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 yanvar 2019-cu il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 43**)
9. 28 dekabr 2018-ci il tarixli **1403-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, 24 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 20**)
10. 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**)
11. 19 may 2020-ci il tarixli **102-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 iyul 2020-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 823**)
12. 24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**)


### QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə adında "**İstehsalat və məişət tullantıları**" sözləri "**Tullantılar**" sözü ilə əvəz edilmişdir.

[2] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə Qanunun preambulası aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Bu Qanun Azərbaycan Respublikasında insan fəaliyyəti nəticəsində əşya və maddə şəklində əmələ gələn istehsalat və məişət tullantılarından (bundan sonra — tullantılar) ətraf mühitin qorunması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, təkrar~~

~~xammal kimi tullantıların istifadəsi sahəsində dövlət siyasətini müəyyən edir, zərərli qazlar, çirkab suları və radioaktiv tullantılar istisna olmaqla, tullantılarla bağlı münasibətləri tənzimləyir.~~

24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə preambulada "**istehsalat və məişət tullantılarının (bundan sonra - tullantıların)**" sözləri "**tullantıların**" sözü ilə əvəz edilsin.

[3] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 1-ci maddəsinin ikinci, dördüncü və altıncı abzaslar yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~**İstehsalat tullantıları** — istehsal prosesində, kənd təsərrüfatında, xidmət sahələrində əmələ gələn və əmələ gəlmə yerlərində istifadəsi mümkün olmayan, habelə texnoloji prosesin gedişində ilkin istehlak xüsusiyyətlərini tam və ya qismən itirən maddələr, əşyalar və materiallar;~~

~~**təhlükəli tullantılar** - tərkibində təhlükəli xüsusiyyətlərə malik toksiki, infeksion, partlayıcı, yüksək reaksiya və yanma qabiliyyətli maddələr olan, əhalinin sağlamlığı və ətraf mühit üçün bilavasitə və ya potensial təhlükə yaradan tullantılar;~~

~~**təkrar xammal** — məhsul və enerji istehsalı, xidmətlər göstərilməsi zamanı təkrar istifadəyə yararlı və bu məqsədlə toplanan (hazırlanan) tullantılar;~~

[4] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 1-ci maddəsinə on birinci-iyirmi doqquzuncu abzaslar əlavə edilmişdir.

[5] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 2-ci maddəsinin adında və mətnində "**Tullantılar haqqında**" sözləri "**Tullantıların idarə olunması sahəsində**" sözləri ilə əvəz edilmişdir.

[6] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 2-ci maddəyə ikinci hissə əlavə edilmişdir.

[7] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 3-cü maddədə "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə əvəz edilmişdir.

**[8]** 28 dekabr 2018-ci il tarixli **1403-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, 24 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 20**) ilə 3-cü maddənin mətni 3.1-ci maddə hesab edilmişdir və yeni məzmunda 3.2-ci maddə əlavə edilmişdir.

24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə 3.2-ci maddədə "**istehsalat və məişət tullantılarının**" sözləri "**tullantıların**" sözü ilə əvəz edilmişdir.

[9] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 4-cü maddənin adında və birinci abzasda "**Tullantılarla bağlı**" sözləri "**Tullantıların idarə olunması sahəsində**" sözləri ilə, dördüncü abzasda "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə, on birinci abzasda "**tullantılarla bağlı fəaliyyət göstərən**" sözləri "**tullantıların idarə olunması sahəsində çalışan**" sözləri ilə əvəz edilmişdir.

[10] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 4-cü maddəsinin beşinci abzas çıxarılmışdır.

Əvvəlki redaksiyada deyilirdi:

~~az tullantılı texnologiyanın yaradılması və tətbiqi;~~

[11] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 4-cü maddəyə beşinci-yeddinci abzaslar əlavə edilsin, altıncı-on ikinci abzaslar müvafiq olaraq səkkizinci-on dördüncü abzaslar hesab edilmişdir.

[12] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 4-cü maddəsinin səkkizinci abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tullantıların təsərrüfat dövriyyəsinə daxil edilməsi məqsədilə iqtisadi və digər stimullaşdırma mexanizmlərindən istifadə olunması;~~

[13] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 5-ci maddənin adında və birinci abzasda "**Tullantılarla bağlı fəaliyyət**" sözləri "**Tullantıların idarə olunması üzrə**" sözləri ilə, ikinci abzasda "**tullantılarla bağlı**" sözləri "**tullantıların idarə olunması sahəsində**" sözləri ilə, yeddinci abzasda "**tullantılarla bağlı fəaliyyətdə**" sözləri "**tullantıların idarə olunmasında**" sözləri ilə, onuncu abzasda "**tullantılarla bağlı fəaliyyətdə**" sözləri "**tullantıların idarə olunmasına**" sözləri ilə, on səkkizinci abzasda "**tullantılarla bağlı fəaliyyətin**" sözləri "**tullantıların idarə olunmasının**" sözləri ilə əvəz edilmişdir.

**[14]** 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 5-ci maddənin birinci abzasında "**dövlət hakimiyyət orqanlarının**" sözləri "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)**" sözləri ilə əvəz edilmişdir.

**[15]** 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 5-ci maddənin səkkizinci abzasın əvvəlinə "**təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların, poliqonların tikinti layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmış ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) sənədlərinin**" sözləri əlavə edilmişdir.

[16] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,

**2007-ci il, 7, maddə 709**) ilə 5-ci maddəsinin doqquzuncu abzas yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tullantıların transərazi daşınma qaydalarının müəyyənləşdirilməsi;~~

[17] 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 5-ci maddənin onuncu abzasa "**tullantılarla**" sözündən əvvəl **"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada** " sözləri əlavə edilmişdir və həmin abzasda **"xüsusi razılıq**" sözləri "**lisenziya və icazə**" sözləri ilə əvəz edilmişdir.

[18] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 5-ci maddəsinin on birinci və on ikinci abzaslar aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~tullantıların idarə olunmasına dövlət standartları, norma və normativlərinin tətbiqi;~~

~~dövlət uçotunun və hesabatının aparılması;~~

[19] 14 aprel 2017-ci il tarixli **594-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 8 iyun 2017-ci il, 122, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 6, maddə 1017**) ilə 5-ci maddənin iyirminci abzasında "**sertifikatlaşdırılması**" sözü "**sertifikatlaşdırılmasının təşkili**" sözləri ilə əvəz edilmişdir.

22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 5-ci maddənin iyirminci abzasına "**sertifikatlaşdırılmasının**" sözündən əvvəl **"Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum tərəfindən**" sözləri əlavə z edilmişdir.

[20] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 5-ci maddəyə on doqquzuncu-iyirmi ikinci abzaslar əlavə edilsin, on doqquzuncu abzas iyirmi üçüncü abzas hesab edilmişdir.

[21] 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 6-cı maddənin üçüncü hissəsində **"mövcud qanunvericiliyə əsasən müvafiq icra hakimiyyəti orqanlarının icazəsi"** sözləri "**müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi dövlət ekoloji ekspertizasının müsbət rəyi**" sözləri ilə əvəz edilmişdir.

[22] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 6-cı maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Qanunvericilikdə başqa qayda nəzərə tutulmayıbsa, hüquqi və fiziki şəxslər tullantını qəbul etdiyi andan onun mülkiyyətçisi hesab edilirlər.~~

~~Mülkiyyətçi tullantıların təkrar xammal kimi istifadəsini və təkrar emal üçün digər müəssisələrə göndərilməsini təşkil etməli, istehsal prosesində əmələ gələn və təkrar istifadə olunan tullantıların uçotunu aparmalı və bu barədə müvafiq icra hakimiyyəti orqanlarına [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi] məlumat verməlidir.~~

[23] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə Qanunun II fəslinin adında "**Tullantılarla bağlı fəaliyyətə**" sözləri "**Tullantıların idarə olunmasına dair** " sözləri ilə əvəz edilmişdir.

[24] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 7-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~M a d d ə 7 . Müəssisə, qurğu və digər obyektlərin layihələşdirilməsi, tikintisi və yenidən qurulmasına aid tələblər~~

~~Müəssisə, qurğu və digər obyektlərin layihələşdirilməsi, tikintisi və yenidən qurulması zamanı hüquqi və fiziki şəxslər ətraf mühitin qorunması üçün müəyyən olunan standartlara, norma və normativlərə əməl etməlidirlər. Onlarda müvafiq icra hakimiyyəti orqanlarının [Azərbaycan Respublikasının Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və Səhiyyə Nazirliyi] layihəyə dair müsbət rəyi və tullantılarla bağlı fəaliyyəti tənzimləyən digər sənədlər olmalıdır.~~

[25] 19 may 2020-ci il tarixli **102-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 iyul 2020-ci il, 131 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 7, maddə 823**) ilə 7-ci maddəsinə yeni məzmunda üçüncü-altıncı hissələr əlavə edilmişdir.

[26] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 8-ci maddənin birinci hissəsinin üçüncü abzasın əvvəlinə " **təhlükəli**" sözü əlavə edilmişdir.

9 oktyabr 2007-ci il tarixli 429-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 10, maddə 938**) ilə 8-ci maddəsinin 1-ci hissəsinin üçüncü abzasının əvvəlinə "**qanunvericiliklə nəzərdə tutulmuş hallarda** " sözləri əlavə edilmişdir.

22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə8-ci maddənin 1-ci hissəsinin üçüncü abzasında "**qanunvericiliklə nəzərdə tutulmuş hallarda** " sözləri "**Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq** " sözləri ilə, "**xüsusi razılıq**" sözləri "l**isenziya və icazə**" sözləri ilə əvəz edilmişdir.

[27] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 8-ci maddənin birinci hissəsinin beşinci abzasda "**tullantıları**" sözündən sonra "**müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada**" sözləri əlavə edilmişdir.

[28] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 9-cu maddənin yeddinci, səkkizinci və doqquzuncu abzasları aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~yararsız tullantıların basdırıldığı və ya saxlanıldığı yerlərdə onların ətraf mühitdən təcrid olunması və sonradan istifadə olunma imkanlarının müəyyən edilməsi;~~

~~əmələ gəlmə yerlərində və ya emal müəssisələrində tullantıların təkrar xammal kimi istifadə olunmasının təşkil edilməsi;~~

~~tullantıların həcminin azaldılmasının, emalının və zərərsizləşdirilməsinin bioloji, fiziki-kimyəvi, mexaniki-texniki, termik və digər üsullarla həyata keçirilməsi~~

[29] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 11-ci maddənin üçüncü hissəsi aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şəhərlərin və digər yaşayış məntəqələrinin ərazisində, kurort, müalicə-sağlamlıq, meşə və rekrasiya zonalarında, yeraltı suların, təsərrüfat və içməli su tutarlarının olduğu ərazilərdə, eləcə də faydalı qazıntılar olan və ya dağ-mədən işləri aparılan zonalarda tullantıların basdırılması qadağandır.~~

2 iyun 2008-ci il tarixli **615-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 6, maddə 460**) ilə 11-ci maddəsinin 3-cü hissəsində "**və rekreasiya**" sözləri "**, turizm və rekreasiya**" sözləri ilə əvəz edilmişdir.

[30] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 12-ci maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Yaşayış məntəqələrinin məişət tullantılarından təmizlənməsinə tələblər~~

[31] 12 iyun 2012-ci il tarixli **379-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 7, maddə 648**) ilə 12-ci maddənin birinci hissəsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~Zərərsizləşdirilmək məqsədilə məişət tullantıları əhali tərəfindən müəyyən olunmuş yerlərdə yerləşdirilməlidir. Müəyyən olunmayan yerlərdə bu tullantıların atılması, saxlanılması və basdırılması qadağandır.~~

**[32]** 12 iyun 2012-ci il tarixli **379-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Respublika" qəzeti 10 iyul 2012-ci il, 150, "Azərbaycan" qəzeti 12 iyul 2012-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 7, maddə 648**) ilə 12-ci maddəyə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

15 dekabr 2017-ci il tarixli **929-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 4 fevral 2018-ci il, 26 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 2, maddə 144**) ilə 12-ci maddənin ikinci hissəsindən "**(şəhər rayonları istisna olmaqla)**" sözləri çıxarılmışdır.

[33] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 12-ci maddənin ikinci hissəsinin əvvəlindəki "**Yaşayış**" sözü "**Şəhərlərin və digər yaşayış**" sözləri ilə əvəz edilmişdir.

[34] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 12-ci maddənin üçüncü hissəsinin əvvəlindəki "**Yaşayış**" sözü "**Şəhərlərin və digər yaşayış**" sözləri ilə əvəz edilmişdir.

**[35]** 12 fevral 2002-ci il tarixli 262-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 4, maddə 165**) ilə 12-ci maddəyə dördüncü hissə əlavə edilmişdir.

[36] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 12-1, 12-2, 12-3, 12-4, 12-5 və 12-6-cı maddələr əlavə edilmişdir.

**[37]** 28 dekabr 2018-ci il tarixli **1426-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 19 yanvar 2019-cu il, 14 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 43**) ilə 12-2-ci maddəsinə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

**[38]** 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 12-3-cü maddəyə yeni məzmunda beşinci hissə əlavə edilmişdir.

**[39]** 24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə 12-6-cı maddənin adında və birinci hissəsində, 13-cü maddənin üçüncü hissəsində "**istehsalat və məişət tullantılarının, habelə**" sözləri "**tullantıların, o cümlədən**" sözləri ilə əvəz edilmişdir.

[40] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 13-cü maddənin üçüncü və dördüncü hissələri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Təhlükəli tullantılar pasportlaşdırılmaqla yalnız xüsusi nəqliyyat vasitələrində daşınmalıdır. Tullantıların pasportu onların kəmiyyətini və təsir xüsusiyyətlərini təsdiqləyən sənəddir.~~

~~Tullantıların pasportlaşdırılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada həyata keçirilir.~~

[41] 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 14-cü maddənin ikinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Tullantıların istifadə edilmək məqsədilə Azərbaycan Respublikasının ərazisinə idxalı, habelə ixracı və tranzit daşınmaları qanunvericilikdə nəzərdə tutulmuş səlahiyyətli orqan tərəfindən verilən icazə əsasında həyata keçirilir.~~

-

[42] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 14-cü maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

M a d d ə 1 4 . Tullantıların idxalı, ixracı və tranzit daşınması

~~Tullantıların idxalı, ixracı və tranzit daşınması Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilən qaydada həyata keçirilir.~~

~~Təhlükəsiz emalı mümkün olmayan, habelə tranzit daşınmaq, basdırılmaq və zərərsizləşdirilmək məqsədilə bu tullantıların Azərbaycan Respublikasına gətirilməsi qadağandır.~~

-

**[43]** 24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə yeni məzmunda II-I fəsil əlavə edilmişdir.

**[44]** 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 15-ci maddənin ikinci hissəsinin onuncu abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~əhalinin sağlamlığı və ətraf mühit üçün potensial təhlükə yaradan fəaliyyətin məhdudlaşdırılması, dayandırılması və ona xitam verilməsi barədə qərar qəbul edilməsi;~~

-

[45] 22 may 2007-ci il tarixli 341-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 7, maddə 709**) ilə 18-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Tullantıların toplanması, yerləşdirilməsi, istifadəsi və zərərsizləşdirilməsi üçün ödəmələr, tullantının həcmi (kütləsi), növü və digər xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilir.~~

-

**[46]** 22 oktyabr 2019-cu il tarixli **1683-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 1 dekabr 2019-cu il, 267 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 11, maddə 1689**) ilə 19-cu maddənin ikinci hissəsində "**qanunvericilikdə müəyyən olunan qaydada"** sözləri "**Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq**" sözləri ilə əvəz edilmişdir.

-

**[47]** 24 iyun 2023-cü il tarixli **928-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 28 iyul 2023-cü il, "Azərbaycan" qəzeti, 29 iyul 2023-cü il, 158**) ilə yeni məzmunda 25-ci maddə əlavə edilmişdir.